**Azərbaycan Respublikası**
**Qobustan rayonu İcra hakimiyyətinin başçısının**

# SƏRƏNCAMI

**№010** **18 yanvar 2022-ci il**

**Qobustan şəhərində 78 ha torpaq sahəsinin yaşayış məntəqələri kateqoriyasına keçirilməsinin məqsədəmüvafiqliyi haqqında**

"Yerli icra hakimiyyətləri haqqında" Əsasnamənin 3.11. və 4.11. bəndlərinə uyğun olaraq, Qobustan bələdiyyəsinin 21 oktyabr 2021-ci il tarixli 10 nömrəli protokolunu, eyni zamanda Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin 12.11.2021-ci il tarixli XO-01-02-2021-07440 nömrəli, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 24.11.2021-ci il tarixli 4/3242-01-22 nömrəli, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət Ekoloji Ekspertiza Agentliyinin 25.11.2021-ci il tarixli 22/3511 nömrəli və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin 13.12.2021-ci il tarixli 01/16-08-09-3190 nömrəli rəylərini nəzərə alaraq

**QƏRARA ALIRAM:**

1."Azərbaycan Respublikasının Qobustan rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" 25 aprel 2008-ci il tarixli 592-IIIQ nömrəli Qanununa əsasən yaradılmış Qobustan şəhərinin Baş planında nəzərdə tutulmuş 77,7 ha xüsusi mülkiyyət torpaqlarına aid əkin sahəsində mülkiyyətçilərlə razılaşdırılmış qaydada çoxsaylı inzibati və sosial əhəmiyyətli tikililərin, yaşayış evlərinin inşa edildiyini, faktiki istifadə vəziyyətini nəzərə alaraq həmin ərazinin yaşayış məntəqələri torpaqları kateqoriyasına keçirilməsi, 179 mülkiyyətçiyə məxsus 77,7 ha əkin sahəsinin isə Qobustan bələdiyyəsinin ərazisində müvafiq qaydada 78 ha əkin sahəsi ilə əvəzləşdirilməsi məqsədəmüvafiq hesab edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20.01.2017-ci il tarixli 10 nömrəli qərarına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabineti qarşısında vəsatət qaldırılsın.

3. Sərəncamın icrasına nəzarəti özümdə saxlayıram.

**Qobustan rayonu İcra hakimiyyətinin başçısı:** **A.M.Məmmədov**